*Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan beynəlxalq təhlükəsizliyi təmin etmək, dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərin toxunulmazlığını dəstəkləmək, münaqişələri sülh yolu ilə aradan qaldırmaq, insan hüquq və azadlıqlarını qorumaq məqsədilə yaradılan ATƏT-ə üzv qəbul olunmuşdur. Xarici siyasətini həyata keçirmək, beynəlxalq əlaqələr qurmaq, müstəqilliyin ilk illərində mövcud problemləri həll etmək üçün ATƏT ölkəmizin üzv olduğu ilk Avropa təşkilatı idi. Belə ki, 1992-ci ildə təşkilatın Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) iclasında ilk dəfə olaraq Ermənistan-Azərbaycan münaqişəsilə bağlı müzakirələr aparılmış, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu təsdiq edən sənəddə sərhədlərin dəyişdirilməməsi şərtilə münaqişənin sülh yolu ilə hallinə çağırış edilmişdir.*




# Lissabon sammiti: Böyük Zəfərə doğru ilk addım

1996-cı ilin dekabrında keçirilən Lissabon Zirvə görüşü ATƏT-in müstəqilliyimizin bərpasından sonra ölkəmizin iştirak etdiyi üçüncü toplantısı idi. 1992-ci ildə Helsinkidə baş tutan birinci görüş istisna olmaqla, 1994-cü ilin dekabr ayında Macarıstanda və iki il sonra Lissabonda keçirilən Zirvə toplantılarında ulu öndər Heydər Əliyevin gərgin əməyi, ikitərəfli və çoxtərəfli formatda apardığı danışıqların nəticəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı mühüm əhəmiyyət kəsb edən qərarlar qəbul olunmuşdur. Budapeşt görüşündə atəşkəs rejiminə riayət olunmasının, münaqişənin tezliklə sülh yolu ilə həlli üçün danışıqlar prosesinin sürətləndirilməsinin, Minsk qrupu tərəfindən işlərin intensivləşdirilməsinin vacibliyi vurğulanmışdır.

1996-cı il dekabrın 2-3-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən növbəti zirvə toplantısında üzv ölkələrin problemləri, qarşılıqlı əlaqələr kimi bir çox məsələlərlə yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması əsas müzakirə mövzusu olmuşdur. Zirvə görüşündə çıxış edən Prezident Heydər Əliyev demişdir: "Ermənistan-Azərbaycan münaqişəsini tez bir zamanda aradan qaldırmaq, ATƏT-in sülhü qoruyan çoxmillətli qüvvələrini yaratmaq məqsədilə 1994-cü ildə ATƏT-in Budapeşt Zirvə görüşündə qəbul edilmiş qərarlara biz tamamilə tərəfdar çıxmışıq... Bu ilin aprel ayında Lüksemburqda Ermənistan Respublikası və Azərbaycan Respublikası prezidentlərinin verdikləri birgə bəyanat münaqişənin aradan qaldırılması istiqamətində mühüm addım olmuşdur. Həmin bəyanat əslində tərəflərin silahlı münaqişəyə beynəlxalq prinsiplər və normalar əsasında son qoymaq əzmini nümayiş etdirən ilk birgə Ermənistan-Azərbaycan sənədidir. ATƏT-in dövlət başçıları ilə bütün başqa səviyyələrdə mənim şəxsi görüşlərim zamanı biz geniş məsləhətləşmələr aparmış, Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmağın optimal, qarşılıqlı surətdə məqbul üsullarını axtarmışıq.

Hörmətli dövlət və hökumət başçıları, Lissabon Zirvə görüşü ərəfəsində mən Sizə məktub göndərmiş, orada ATƏT-in prinsiplərinə, BMT nizamnaməsinə və hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına ciddi əməl etmək əsasında münaqişənin aradan qaldırılması üsulunu təklif etmişəm. Bu təklifdə bütün tərəflərin mənafeyi nəzərə alınır. Nizamasalmanın bu kompromisli üsulu aşağıdakı tərkib hissələrindən ibarətdir: Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik təminatı. Bu üsul beynəlxalq vasitəçilər tərəfindən dəstəklənir, ATƏT-in indiki sədrinin 1996-cı ilin fevral ayında münaqişə regionunda olarkən təklif etdiyi prinsiplərə bir çox cəhətdən uyğun gəlir".

Lakin erməni tərəfi ATƏT-in əsas prinsiplərinin ziddinə gedərək Lissabon sammitinin bəyannaməsinə bu prinsiplərin daxil edilməsinə konsensus vermədi. Buna cavab olaraq Azərbaycan Prezidenti Heydər Əliyev konsensus hüququndan istifadə etməklə Zirvə toplantısının son sənədinə veto qoydu. Belə olan halda sammit hər hansı bir sənəd qəbul edilmədən başa çatmalı idi. Bundan çox narahat olan üzv ölkələrin dövlət başçıları, nümayəndə heyətlərinin rəhbərləri Azərbaycan nümayəndə heyəti ilə intensiv danışıqlar aparır, sammitin bəyannaməsinin bütün mətni ilə əlaqədar öz etirazlarımızı geri götürməyi xahiş edirdilər. Azərbaycan Prezidenti Heydər Əliyev məsələ ilə bağlı öz mövqeyini bildirərək bunun ATƏT-in prinsiplərinə tamamilə uyğun, Ermənistan tərəfinin Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina etməsinin isə təşkilatın əsas prinsiplərinə zidd olduğunu bəyan etdi. Ulu öndər, həmçinin ABŞ-ın vitse-prezidenti




Albert Qor, Rusiyanın baş naziri, bu ölkənin nümayəndə heyətinin başçısı Viktor Çernomırdin, Türkiyənin prezidenti Süleyman Dəmirəl, Finlandiyanın prezidenti Marti Ahtisaari, Ukraynanın prezidenti Leonid Kuçma, Portuqaliyanın baş naziri Antonio Quterreş, İsrailin baş naziri Netanyahu, Qazaxıstanın prezidenti Nursultan Nazarbayev, Gürcüstanın prezidenti Eduard Şevardnadze, ATƏT-in sədri, İsveçrənin xarici işlər naziri Flavio Kotti, Ermənistanın prezidenti Ter-Petrosyan, Rusiyanın xarici işlər naziri Yevgeni Primakov, Almaniyanın xarici işlər naziri Klaus Kinkel, Böyük Britaniyanın xarici işlər naziri Malkolm Rifkind, Fransanın xarici işlər naziri Evre de Şarett, ABŞ dövlət katibinin müavini xanım Linn Devis və b. bir çox dövlət və hökumət başçıları ilə keçirdiyi görüşlərdə bu məsələni müzakirə edərək Azərbaycanın haqlı mövqeyini bildirdi.

Təşkilata üzv ölkələrin, Minsk qrupunun, Avropa Birliyinin nümayəndələri və ATƏT-in sədri tərəfindən alternativ variantlar təklif olunsa da, Heydər Əliyev cəsarət, qətiyyət nümayiş etdirərək son iclasadək sammitin əsas sənədinə konsensus vermədi. Sammitin son iclasında ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti təşkilat üzvlərinin, sammit iştirakçılarının iradəsini ifadə edərək bu prinsiplərin təsdiq edilməsi ilə bağlı bəyanat verdi və Ermənistandan başqa bütün dövlətlər bu prinsipləri müdafiə etdilər. Beləliklə, Azərbaycan üçün çox əhəmiyyətli olan ATƏT-in sənədi qəbul olundu. Bəyanatda deyilirdi: "Hamınız bilirsiniz ki, son iki ildə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində tərəqqi əldə olunmayıb. Təəssüf edirəm ki, tərəflərin tənzimlənmənin prinsiplərinə dair fikirlərini bir-birinə yaxınlaşdırmaq üçün Minsk konfransı həmsədrlərinin səyləri uğursuz olub. Minsk qrupunun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını təşkil edəcək üç prinsip tövsiyə edilibdir. Həmin prinsiplər Minsk qrupunun üzvü olan bütün dövlətlər tərəfindən dəstəklənir. Onlar aşağıdakılardır:

- Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Azərbaycan tərkibində Dağlıq Qarabağa ən yüksək dərəcəli özünüidarəetmə verən özünütəyinetmə əsasında Dağlıq Qarabağın sazişlə müəyyən edilmiş hüquqi statusu;
- tənzimləmə müddəalarına bütün tərəflərin əməl etməsini təmin edən qarşılıqlı öhdəliklər daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.

Təəssüf edirəm ki, Ermənistan bunu qəbul edə bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən dəstəklənir. Bu bəyanat Lissabon sammitinin sənədlərinə daxil olacaq".

ATƏT-in sədri Flavio Kotti bütün üzvlər və sammit iştirakçıları adından bəyanat verərək sənəddə Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair üç prinsipi təsdiq etdi və bildirdi ki, bu prinsipləri və bəyanatı Ermənistan istisna olmaqla bütün sammit iştirakçıları və ATƏT-in üzvləri dəstəkləyirlər.

Ermənistanın veto qoymasına baxmayaraq, o vaxta qədər ATƏT-in sənədlərində öz əksini tapmayan sənədin qəbul edilməsi Azərbaycanın böyük qələbəsi idi. Lissabon Zirvə görüşünün ölkəmiz üçün böyük əhəmiyyəti bir də ondan ibarət idi ki, toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyəti Zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə çatdırıldı.

Lissabonda çox gərgin, mürəkkəb, kəskin, dramatik vəziyyət yaransa da, Azərbaycan sülhsevər, humanist siyasət yürütdüyünü nümayiş etdirdi. Prezident Heydər Əliyev bəyan etdi ki, biz gələcəkdə öz fəaliyyətimizi ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş bu sənədin əsasında quracaq, atəşkəs rejimini qoruyub saxlayacaq, Ermənistan və Azərbaycan prezidentlərinin xüsusi nümayəndələrinin apardıqları bilavasitə danışıqlar prosesini davam etdirəcək və çalışacağıq ki, məsələnin sülh yolu ilə həllinə nail olaq: "Atəşkəs rejiminə uzun müddət əməl olunması bizim sülh istəyimizi nümayiş etdirən mühüm nailiyyətdir. Atəşkəs sabit davam edən danışıqlar prosesini sahmana salmağa imkan vermiş, münaqişənin aradan qaldırılması üçün göstərilən səylərin etibarlı təməlinə çevrilmişdir və Azərbaycan tərəfi sülh müqaviləsi imzalananadək bu rejimə əməl etmək niyyətindədir".

Ulu öndər Heydər Əliyevin düşünülmüş, məqsədyönlü siyasəti nəticəsində Lissabon Sammiti Azərbaycanın diplomatik qələbəsinin başlanğıcı oldu. Bu qələbə 2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyilə Qarabağ Zəfəri ilə yekunlaşdı, Azərbaycan gərgin, çətin proseslərdən keçərək ərazi bütövlüyü və suverenliyini tam bərpa etdi. Ümummilli liderin şah əsəri olan müstəqil, müasir Azərbaycan bu gün ərazilərini işğaldan azad etmiş, dünyada böyük nüfuz sahibi, Cənubi Qafqazın lider ölkəsi olaraq tanınır və etibarlı tərəfdaş kimi qəbul edilir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**